# Hörmətli Anar müəllim!
# Hörmətli dostlar!

On illərin dostluğu ərzində biz dərdi, itkini və xalqın qələbə sevincini birgə yaşamışıq. Bu olaylardan qaynaqlanan fikir və duyğularımız bizim kitablardadır.

Qurultaya dəvət aldığım üçün minnətdaram! Bu gün Bakıda ola bilmirəm ona görə ki, məhz bu gün - 26 oktyabrda Alma-Atada YUNESKO-nun nəzdindəki Mədəniyyətin Yaxınlaşması Mərkəzinin Forumu öz işinə başlayır.

Bu ali təşkilatın rəhbərliyi gəlib və bizim Mərkəz on il ərzində (2013-2022) görülən işlərin hesabatını verir. 2012-ci ildə YUNESKO-nun Baş Konfransı mədəniyyətin elmi yaxınlaşmasının on illiyini keçirmək təklifimizi dəstəklədi, bitməyən müharibələri, əks mövqeləri səbəb gətirən fikir ayrılıqları da oldu. Elm və ədəbiyyat xristian-islam, müəyyən mənada erməni-türk münasibətlərində haqq-ədalətin bərpasına həlledici yardımçı ola bilər. Biz əminik ki, bu Forum çox vacib olan mədəniyyətin yaxınlaşması mövzusuna yeni enerji əlavə edəcək.

Hər birinizi möhkəm öpürəm. Qardaş ədəbiyyatına yaradıcılıq zirvələri arzulayıram!

Sizin **Oljas SÜLEYMENOV**

*Alma-Ata,*
*Oktyabr 2022*

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 29 oktyabr.- S. 2.**